# Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 6 dekabr 1993-cü il***

***№ 756***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 dekabr 1993-cü il, № 245).***

***«Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir (31 dekabr 1993-cü il, № 23—24 (900—901) maddə 679) .***

***6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli; 30 sentyabr 2013-cü il tarixli, 723-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklərlə.***

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli, 756 nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeninin

# Statutu

1. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikasında milli azadlıq hərəkatında və ictimai-siyasi fəaliyyətdə xüsusi xidmətlərinə görə;
- hərb elminin və hərbi texnikanın inkişafında xüsusi xidmətlərinə görə;
- Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə görə;
- respublikada əmin-amanlığın təmin edilməsində, asayişin qorunmasında və hərbi xidmətdə xüsusi xidmətlərinə görə;
- dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə.

2. «Azərbaycan Bayrağı» ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda «Şah İsmayıl» ordenindən sonra taxılır.

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 fevral tarixli, 429-IQD nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir.*

# *«Azərbaycan Bayrağı» ordeninin təsviri*

*«Azərbaycan Bayrağı» ordeni iki, bir-birinin üzərinə qoyulmuş, biri digərinə nisbətən ox ətrafında dönmüş, qabarit ölçüsü 35 mm səkkizguşəli ulduzdan ibarətdir, qızıl suyuna çəkilmiş gümüşdəndir, milli ornamentlə işlənmişdir, altdakı ulduz ağ və göy rəngli mina ilə örtülmüşdür.*

*Üstdəki ulduzun mərkəzində naxışla haşiyələnmiş sağanağın daxilində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir olunmuş və öz rənglərinə uyğun mina ilə örtülmüşdür.*

*Arxa tərəfi hamar səthlidir, ortasında «Azərbaycan Bayrağı» sözləri yazılmışdır, ondan aşağıda ordenin seriyası və nömrəsi həkk olunmuşdur.*

*Orden halqa və ilgək vasitəsilə paltara bərkidilmək üçün elementi olan, Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun zolaqlarla haşiyələnmiş 37 mm x 50 mm ölçülü beşguşəli ağ xara lentə birləşdirilir. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı təbəqə bərkidilir.*

*Ordenə paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.*





**“Azərbaycan Respublikasının “Azərbaycan Bayrağı” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 756 nömrəli Qanununda dəyişikliklər edilməsi barədə**
**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

"AZƏRBAYCAN BAYRAĞI" ordeni



“Azərbaycan Respublikasının “Azərbaycan Bayrağı” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 756 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 679; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 141) ilə təsdiq edilmiş “Azərbaycan Bayrağı” ordeninin təsviri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci hissədə “ağ, üstdəki ulduz isə göy” sözləri “ağ və göy rəngli” sözləri ilə əvəz edilsin.

2. Üçüncü hissədə “nömrəsi” sözündən əvvəl “seriyası və” sözləri əlavə edilsin.

3. Dördüncü hissədə “27 mm x 47,5 mm” sözləri “37 mm x 50 mm” sözləri ilə əvəz edilsin və hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı təbəqə bərkidilir.”.

4. Beşinci hissədə “üzərində alov simvolu təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm” sözləri “eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2013-cü il.**